"Göyərçin" – 50

Yarıməsrlik yaradıcılıq yolu

Müsahibimiz haqqında. *Tanınmış şair, ədəbiyyatşünas Rafiq Yusifoğlu (Əliyev) Qubadlı rayonunda müəllim ailəsində anadan olub. İndiki ADPU-nun filologiya fakültəsini bitirəndən sonra Sumqayıt şəhərində müəllim işləyib. Nizami adına Ədəbiyyat İnstitutunun aspiranturasını bitirib. 1984-cü ildə namizədlik, 2006-cı ildə doktorluq dissertasiyası müdafiə edib. Filologiya elmləri doktoru, Sumqayıt Dövlət Universitetinin professorudur.*

1997-ci ildən "Göyərçin" jurnalının baş redaktoru vəzifəsində çalışır. Azərbaycan Respublikasının əməkdar mədəniyyət işçisidir. "Qızıl qələm", "Vətən", "Araz", "İlin ən yaxşı kitabı" və s. ədəbi mükafatların laureatı, 40-dan çox kitabın, o cümlədən ali məktəb tələbələri üçün yazılmış "Ədəbiyyatşünaslığın əsasları", "Uşaq ədəbiyyatı", "Müasir ədəbi proses və ədəbi tənqid" dərsliklərinin müəllifidir. Əsərləri orta məktəb dərsliklərinə düşüb, bir sıra dillərə tərcümə edilib.

- Rafiq müəllim, "Göyərçin" jurnalının nəşri tarixinə nəzər salmaq oxucularımız üçün də maraqlı olardı.

- Azərbaycan uşaqlarının sevimli jurnalı "Göyərçin"in ilk sayı 1958-ci ilin yanvar ayında işıq üzü görüb. "Göyərçin" özündən əvvəl nəşr olunan "Dəbistan", "Rəhbər", "Məktəb" jurnallarının, digər uşaq nəşrlərinin mənəvi varisi və davamçısıdır. 1927-ci ildən Azərbaycanda "Pioner" adlı uşaq jurnalı nəşr olunurdu. Ancaq bu jurnalda, əsasən, orta yaşlı uşaqlar üçün yazılar işıq üzü görürdü. Elə buna görə də məktəbəqədər yaşlı uşaqlar və ibtidai sinif şagirdləri üçün yeni bir jurnal nəşr etdirmək zərurətindən "Göyərçin" fəaliyyətə başladı.

- Ədəbi nəşrin ilk redaktoru kim olub?

- "Göyərçin" jurnalında çox görkəmli qələm sahibləri çalışıblar. Jurnalın ilk redaktoru tanınmış yazıçı Yusif Əzimzadə olub. Sonradan bu jurnala xalq yazıçısı Hüseyn Abbaszadə, Xalidə Hasilova və Tofiq Mahmud rəhbərlik ediblər. Təkcə jurnalın baş redaktorları yox, onun əməkdaşları da tanınan, sayılıb-seçilən insanlar olublar. Xalq şairi Xəlil Rza Ulutürk, görkəmli təmsil ustası Hikmət Ziya, Vaqif İbrahim, Əbülfəz Hüseyni, Bayram Həsənov, Həbibə Zeynalova, Cahangir Məmmədov, Tahirə İsgəndərova və başqaları uzun müddət "Göyərçin" jurnalında işləyiblər.

- Uşaqların bədii, mənəvi-estetik tərbiyəsində "Göyərçin" jurnalının rolu...

- Bu sahədə "Göyərçin"in uğurları çox böyükdür. Hikmət Ziya zarafatla deyirdi ki, "Göyərçin" qartallar yetişdirir... Bu, doğrudan da beledir. Görkəmli maarif xadimləri, alimlər, pedaqoqlar, yazıçılar "Göyərçin"ə çox yüksək qiymət veriblər. 50 ildə "Göyərçin" zəngin bir uşaq ədəbiyyatı kitabxanası yaradıb. Təsadüfi deyil ki, dərsliklər, oxu kitabları, vəsaitlər hazırlananda həmişə "Göyərçin"dən bir mötəbər mənbə kimi istifadə olunub. Bu iş indi də davam etdirilir. "Göyərçin"i "Əlifba"dan sonra ən qiymətli oxu kitabı adlandıranların fikrində böyük həqiqət vardır.

- "Göyərçin" rəngli, illüstrativ jurnaldır. Bir neçə kəlmə rəssamları barədə.

- "Göyərçin" 50 ildə təkcə şairlər, yazıçılar, alimlər yox, həm də rəssamlar yetişdirib. Vaxtilə ilk rəsmlərini bu jurnalda çap etdirən rəssamlar indi ölkəmizin ən sayılıb-seçilən sənətkarlarıdırlar. Təkcə bir faktı xatırlatmaq yerinə düşərdi: jurnalın bədii redaktoru işləyən üç əməkdaşı — Yusif Hüseynov, Rafiq Mehdiyev, Arif Hüseynov xalq rəssamı adına layiq görülüblər. Əsərləri ayrı-ayrı zamanlarda "Göyərçin"i bəzəmiş görkəmli Azərbaycan rəssamlarının adları da bu jurnalın bədii səviyyəsi haqqında az söz demir: Toğrul Nərimanbəyov, Tahir Salahov, Rasim Babayev, Davud Kazımov, Tofiq Cavadov, Altay Hacıyev, Cəmil Müfidzadə, Gülnaz Salamova, Viktor Xruslov, Hacəmi Atakişiyev, Ənvər Qarayev, Ənvər Dadaşov, Arif Əzizov, Oqtay Quliyev, Səmayə Hüseynova, Nailə Cəfərova...

- Azərbaycan uşaq ədəbiyyatının inkişafı və təbliğində jurnalın rolu barədə nə deyərdiniz?

- Əgər belə demək mümkündürsə, 50 ildə "Göyərçin" Azərbaycan uşaq ədəbiyyatının ən münbit təsərrüfat sahəsi olub və bu missiyasını indi də davam etdirməkdədir. XX əsrin ən görkəmli Azərbaycan yazıçıları, şairləri "Göyərçin" jurnalında öz yazıları ilə müntəzəm suretdə çıxış eləyiblər. Onlardan A.Şaiq, S.Rəhimov, M.İbrahimov, Ə.Vəliyev, S.Rüstəm, M.Rəhim, İ.Əfəndiyev, Ə.Cəmil, M.Dilbazi, B.Bayramov, İ.Şıxlı, B.Vahabzadə, N.Xəzri, H.Arif, M.Araz, N.Həsənzadə, Ə.Kərim, T.Elçin, X.Əlibəyli, M.Rzaquluzadə, M.Seyidzadə, İ.Tapdıq, Anar, Elçin, F.Qoca, F.Sadıq, M.Günər və başqalarının adlarını xüsusi qeyd etmək olar.

Cəsarətlə demək olar ki, son əlli ildə Azərbaycan uşaq ədəbiyyatının inkişafı birbaşa "Göyərçin" jurnalının adı ilə bağlıdır. Təsadüfi deyil ki, "Göyərçin"də çap olunan ədəbi yazılar və rəsm əsərləri dissertasiya və tədqiqatların mövzusuna çevrilib, hazırda bu iş davam etdirilir.

- Dünya xalqlarının uşaq ədəbiyyatından nümunələrin jurnalda nəşri ilə bağlı görülmüş işlər də az deyil.

-Dünya uşaq ədəbiyyatının görkəmli nümayəndələrinin əsərləri tərcümə edilərək ilk dəfə "Göyərçin" jurnalında nəşr olunub. Qrimm qardaşları, Andersen, C.Rodari, D.Bisset, F.Q.Lorka, L.Tolstoy, S.Yesenin, K.Çukovski, S.Marşak, L.Briedis və digər tanınmış yazıçıların əsərlərindən tərcümələr ayrı-ayrı vaxtlarda jurnalın oxucularına təqdim olunub.

Dünya folklor nümunələrinin tərcümə edilərək jurnalda verilməsi də ən təqdirəlayiq hadisələrdəndir. "Göyərçin"in kitabxanası" seriyasından çap etdirdiyimiz "Dünya xalqlarının nağılları", "Möcüzəli xəzinə", "Ədalətli hakim", "Min dovşan otaran çoban", "Meymunlar ölkəsi", "Namuslu oğru" və s. kitablarda nəşr olunan dünya xalqlarının sayseçmə nağılları öz tədqiqatçılarının yolunu gözləyir.

Bundan başqa, biz həmin seriyadan Tofiq Mahmudun "Xeyirxah adam", "Minarədən atılan dəş" kitablarının da nəşrini reallaşdırmışıq.

- Rafiq müəllim, sizin "Göyərçin"in kitabxanası" seriyasından çap olunan "Günlərimiz, aylarımız", "Zamanın qatarı", "Söz çəməni", "Böyük arzuya gedən yol", "Yollar", "Ana dilim" adlı kitablarınız müəllif təxəssislər tərəfindən çox yüksək qiymətləndirilib. Necə olub ki, bu kitabları yazmaq fikrinə düşmüşsünüz?

- Mən vaxtilə orta məktəbdə işlədiyimdən uşaqların nəyə ehtiyacı olduğunu bilirdim. Ayrı-ayrı tədbirlərin, səhərciklərin keçirilməsində lazım olan mövzuda əsərlər tapmaqda bəzən çətinliklə də rastlaşırdıq. Ona görə düşündüm ki, tarixi günlərimiz haqqında şairlər yazmaq lazımdır. Beləliklə də "Böyük arzuya gedən yol" kitabı yarandı. İbtidai sinif müəllimləri bu kitabı çox bəyəndilər və onun ehtə dairəsini daha genişləndirməyi xahiş elədilər. Beləliklə, həmin kitabın yeni, təkmilləşdirilmiş variantı — "Günlərimiz, aylarımız" meydana gəldi. Azərbaycan dilinin qrammatikasını öyrətmək məqsədilə yazılan "Söz çəməni", "Ana dilim" kitabları da həmin qayda ilə yaradıldı.

Daha sonra müəllimlər, kitabxana işçiləri fəsillər haqqında, yol hərəkəti qaydaları haqqında kitaba ehtiyac olduğunu söylədilər. Nəticədə "Zamanın qatarı" və "Yollar" kitabları yazılıb nəşr edildi. Sevinirəm ki, bütün bu kitabların hamısı "Göyərçin" jurnalının adı ilə bağlıdır. Bir də ən sevindirici cəhət odur ki, həmin kitablarda nəşr edilən şeirlər tezliklə dərsliklərə, əlavə oxu kitablarına yol tapdı.

- Tez-tez mütəxəssislər belə bir sözü də vurğulayırlar: "Göyərçin" akademik bir jurnaldır. Bu haqda nə deyə bilərsiniz?

- Bu sözdə də böyük həqiqət vardır. "Göyərçin" bütün dövrlərdə tərbiyəyə kompleks şəkildə yanaşmağı bacaran bir jurnal olub. Onun səhifələrində çap olunan şeirlər, hekayələr, nağıllar həm öz ideya-məzmunu, həm bədii səviyyəsi, həm də yüksək professionallıqla təqdimatı — rəsmləri ilə diqqəti cəlb edib. Bundan başqa, "Təbiət guşəsi", "Bilik klubu", "Ulu yurd yerlərimiz", "Yurdumuzun çayları", "Qəhrəman oğullarımız", "Axtar, düşün hər dəfə, sənindir bu səhifə", "Hər bir sənət yaxşıdır, hansını istəsən seç", "Şahmat klubu", "Gənc idmançının səhifəsi", "Əvvəl öyrən, sonra oyna", "Balaca Nəsrəddin", "Görkəmli rəssamlarımız", "Sənə verilən testi, həll et görüm əlüstü" və sair bu kimi rubrikalarda verilən yazılar uşaqların maraq dünyasına uyğun şəkildə hazırlanıb, onların hərtərəfli inkişafına yardımçı olmaq məqsədini daşıyıb.

- "Göyərçin" jurnalı, yanılmıramsa, dövlət hesabına nəşr olunur.

- Bəli, "Göyərçin" dövlət himayəsində yaşayan bir jurnaldır. Bu da təsadüfi deyil, çünki uşaq mətbuatı ölkəmizin gələcək vətəndaşlarının tərbiyəsi kimi son dərəcə mühüm bir işlə məşğul olur.

"Göyərçin" jurnalı müstəqilliyimizin ilk illərində bağlanmaq təhlükəsi ilə üzləşdi. Ümummilli liderimiz Heydər Əliyev ədəbiyyatımıza, mədəniyyətimizə, incəsənətimizə, o cümlədən uşaq mətbuatımıza da böyük qayğı, xüsusi diqqət göstərdi.

Jurnalımızın yaradıcı kollektivi ulu öndərimizin şərəfli yolunu ləyaqətlə davam etdirən, daim ədəbiyyatımızın, mədəniyyətimizin inkişafına və jurnalımıza qayğı göstərən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə öz dərin təşəkkürünü bildirir.

Yarımərsrlik şərəfli bir ömür yolu keçən, Azərbaycanın mətbuatı salnaməsində özünəməxsus iz qoyan "Göyərçin" jurnalı dövlət qayğısı və himayəsi sayəsində öz səmərəli fəaliyyətini bu gün də davam etdirir.

- "Azərbaycan müəllimi"nin çoxsaylı oxucuları və redaksiya kollektivi adından yubiley münasibətilə sizi və əməkdaşları təbrik edir, yaradıcılıq uğurları arzulayırıq.

- Sağ olun.

Müsahibəni apardı:
Ş.MƏMMƏDOV

Uşaqlar qayğıdan razılıq etdilər

Dünyanın 131 ölkəsində 440 SOS Uşaq Kəndi var. 2000-ci ildə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə "SOS Uşaq Kəndləri - Azərbaycan" Assosiasiyası yaradılıb. Elə o vaxtdan Sevil Əliyeva Assosiasiyanın fəxri prezidenti seçilib. "SOS Uşaq Kəndləri - Azərbaycan" Assosiasiyası imkanlı şəxslərin, xeyirxah insanların, şirkətlərin, ianələrin hesabına maliyyələşir. Assosiasiyanın Xətai rayon filialında müasir tipli, 14 ailə evində 100 uşaq məskunlaşıb. Buraya 6 aylığından 8 yaşına qədər kimsəsiz, valideyn himayəsindən məhrum olan uşaqlar götürülür.

Uşaqların bir neçəsi ilə görüşüb söhbət edirik.

— Adım Aydandır. 1999-cu ildə Balakən rayonunda anadan olmuşam. Bakı SOS Uşaq Kəndinə gəlişim belə yadımda qalıb: 5 il öncə atam mənə dedi ki, sən Bakı şəhərini tanımaq istəyirdin, odur ki, hazırlaş, gedək. Biz bura — SOS Uşaq Kəndinə gəldik. Atam dedi ki, sən burada xalalarla qal, mən də bir azdan qayıdacağam. Bir neçə gün darıxsam da, Lalə xalanın nəvazişi və uşaqlarla dostluğum sayəsində mən burani çox istəməyə başladım. 2 il uşaq bağçasına getdim. İndi də Xətai rayonundakı 257 nömrəli orta məktəbin III sinfində oxuyuram. "4", "5" qiymətlər alıram. Arzum böyüyəndə həkim olmaqdır. Bir neçə dəfə atam və anamla görüşmüşəm.

Rəşidənin 7 yaşı var. O, buraya 6 aylığından gətirilib. Gözünü açıb bu evdə böyüyən bacı-qardaşlarını görüb. Rəşidə böyük bacısı Güneli daha çox istəyir.

Röya, Gülarə, Elvin, Elçin bacı-qardaşları Cəlilabad rayonundandırlar. Onlar SOS Uşaq Kəndi açılandan burada böyüyürlər. Onlar bu evdə tam qayğı ilə əhatə olunublar. Uşaqların atası Qazaxıstana qazanc dalınca getmiş, ananın dolanışıq vəziyyəti çətin olduğundan 4 uşağını SOS Uşaq Kəndinə gətirib.

Aytən 6 ildir ki, SOS Uşaq Kəndindədir. 257 nömrəli məktəbin VIII sinfində oxuyur. Hər iki valideyni olsa da, onlarla müntəzəm əlaqə saxlamaq istəmir. "Anam mənə dedi ki, evə qayıt, mən isə etiraz etdim. Ona görə ki, atam anamla bir yerdə yaşamır".

Aytən nəvaziş göstərdikləri üçün SOS Uşaq Kəndindəki ana və xalasından çox razıdır. O, kimya, Azərbaycan dili və tarix fənlərini dərindən öyrənmək istəyir. Arzusu rəssam olmaqdır. Yaxşı şəkillər çəkir. Vaxtı olanda ana və xalasına yemək hazırlamaqda kömək edir. Dostları isə Dilbər, Aişə, Anar və Elvindir. Aytən bildirdi ki, gələcəkdə ali təhsil alacaq və işləyəcəyi müəssisələrdə nümunəvi olmağa çalışacaq. Borclu olduğu SOS Uşaq Kəndinin adını uca tutacaq. Aytən onlara yaradılan şərait üçün hər kəsə minnətdardır.

Sifai SƏFƏROVA,
foto Fazil İDRİSOĞLUNUNDUR

Gənc kulinar peşəsinin vurğunudur

Bu gün gənclərin ixtisaslı fəhlə kadrları kimi həyata hazırlanmasında, əməyə, zəhmətə məhəbbət ruhunda böyüməsində peşə məktəbləri əvəzsiz rol oynayır. Belə təhsil ocaqlarından biri də 11 nömrəli Bakı Peşə Liseyidir.

Sənubər Qurbanova Bakı şəhərindəki 99 nömrəli məktəbin IX sinfini 2005-ci ildə bitirdikdən sonra həmin liseyə qəbul olunub. Liseydə oxuduğu bu müddətdə özünü bacarıqlı, sənətini sevən, bilikli, səriştəli bir şagird kimi tanıdıb. O, elə ilk gündən ixtisas fənn müəllimlərinin və istehsalat təlimi ustalarının diqqətini öz bacarığı ilə cəlb edib. Biliklərə dərindən yiyələnməklə, sənətinə marağı daha da artıb. Xüsusi ilə istehsalat təlim ustası Çiçək Baxışovanın sevimli şagirdlərindən biri olub. Təsadüfi deyil ki, Azərbaycan Respublikası Milli Kulinariya Mərkəzinin baş direktoru Tahir Əmiraslanov dünya yarışlarında iştirak etmək üçün bacarıqlı, işini yaxşı bilən aşpaz, qənadıçı, şirniyyatçı ixtisası üzrə bir nəfərin namizedliyinin verilməsini xahiş edəndə, liseyin rəhbərliyi Sənubəri məsləhət bilmişdi.

Bəli, Sənubərin iştirak etdiyi ilk böyük yarış 2007-ci ilin mayında Moskvada keçirilmişdi. Dünya restoranları şəbəkəsinin Moskvada keçirilmiş ən yaxşı sendviçlərin III müsabiqəsində diploma layiq görülmüş, Moskva hökuməti Milli Ticarət Assosiasiyası tərəfindən mükafatlandırılmışdı.

Sənubər Qurbanova 2007-ci ilin dekabrında İstanbul şəhərində keçirilən dünya kulinariya yarışında 4-cü yerə layiq görülüb.

Sənubərin hazırda təhsil aldığı liseydə yaradılmış səliqə-sahman göz oxşayır. Şagirdlərin fəaliyyətini əks etdirən fotomontajlar, lövhələr bura gələnlərin diqqətini cəlb edir. Məktəbin maddi-texniki bazası şagirdlərə öyrəndikləri nəzəri bilikləri təcrübədə həyata keçirməyə imkan verir və hər kəsdə peşəyə, sənətə məhəbbət oyadır.

Ə.DAŞDƏMİRLİ



Məktəblə ailənin qarşılıqlı əlaqəsi şagirdlərə nə verir?

Valideyn iclasları təhsilə ictimai rəyin məktəblə ailənin qarşılıqlı əlaqəsinin formalarından biri olub, təlim-tərbiyə prosesində mühüm rol oynayır. Bəs hazırda bu iclaslar necə keçirilir? Bu müzakirələrin nəticəsi şagirdlərin tərbiyəsinə təsir göstərirmi?

Bu kimi suallara aydınlıq gətirmək üçün Bakının Yasamal rayonundakı 13 nömrəli məktəbin direktoru Rəfiqə Məmmədova ilə görüşdük. O bildirdi ki, məktəb üzrə 61 sinifdə 1446 şagird təhsil alır. Hər sinfin özünün valideyn komitəsi var. Dərs ilinin əvvəlindən məktəbdə 100-dən çox sinif-valideyn iclası keçirilib. Sinif rəhbərlərinin illik tərbiyə işi planına əsasən nadinc uşaqlarla mütəmadi olaraq fərdi söhbətlər aparılır. Lazım gəldikdə valideynlərlə əlaqə yaradılır, bir çox hallarda isə onlar məktəbə dəvət edilir. Əks təqdirdə sinif rəhbərləri valideynlərin evlərinə gedir, şagirdin hər hansı hərəkəti barədə onlara məlumat verilir. Ən ciddi məsələlər məktəb-valideyn komitəsinin iclasında müzakirə edilir.

Sonra bir neçə şagirdlə söhbət etmək qərarına gəldik. VII "B" sinif şagirdi Vüqar İsgəndərov dedi:

— Mən bir-iki dəfə icazəsiz dərsdən qalmışdım, cəbr, musiqi və nəğmə dərslərində sinif yoldaşlarımla söhbət etmişdim. Bu xoşagəlməyən hərəkətlərim barədə sinif rəhbərim Kəmalə Davudovaya və sinif-valideyn komitəsinin sədri Aida Bayramovaya məlumat verildi. Bir gün anam iclasa çağırıldı. Həmin iclasda, sonra isə evdə yaxşıca danlandım...

Söhbətə Vüqarın sinif yoldaşı Seymur Eyvazov qoşulur: mən də bir-iki dəfə fiziki tərbiyə dərsindən qaçıb yaxınlıqdakı "Aytən" İnternet mərkəzinə getmişdim. Məni də sinif-valideyn iclasında o ki var danladılar. Valideynlərimə də məlumat verdilər. Evdə də məni iki həftə televizora baxmaqdan məhrum etdilər. O vaxtdan Vüqar kimi mən də dərs zamanı kənar işlərlə məşğul olmuram...

VII "C" sinif şagirdi Fərid Ağamoğlanov kinq-boks üzrə Azərbaycan çempionudur. Öz yaş qrupu və çəki dərəcəsi üzrə yarışlarda qızıl medal və diplomlar alıb. Ondan soruşduq ki, bəs necə olub ki, adın dərəcələr siyahısına düşüb? Bu dərəcəlikləri çoxdan olub, amma yaddaqalan dərəcəliklər olub, — dedi... Bir dəfə, təxminən ötən ilin oktyabr ayı idi. Sinif yoldaşlarım Cavid və Fərid İbrahimovlarla birlikdə məktəbin dəhlizində qapını vurub sındırdıq. Bu işdən xəbər tutan tədris işləri üzrə direktor müavini Elmira Babayeva bizi yaxşıca tənbeh etdi. Sinif-valideyn iclası çağırıldı. Burada anam da iştirak edirdi. Bu yaramaz hərəkətimə görə anamın pərt olması, sözün doğrusu, mənə yaman təsir etdi. O iclasdan sonra özümə söz vermişəm ki, bir də belə səhvlərə yol vermeyim.

Məktəb rəhbərliyi və şagirdlərlə olan söhbətlərdən belə qənaətə gəlmək olar ki, bu gün gənclərin tərbiyəsinə mənfi təsir göstərən bir çox halların artması təhsil sahəsində çalışanların işini xeyli çətinləşdirir. Axı şagirdlərin üzərində ailə və məktəb nəzarəti zəifləyərsə, onların yad təsirlərə tez məruz qalmaq risqi daha da artar. Hər bir təhsil ocağı bilik, tərbiyə vermək kimi əsas vəzifəsi ilə bərabər, uşaqları kənar təsirlərdən də qorumalıdır.

Ədalət DAŞDƏMİRLİ